AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

*Əlyazması hüququnda*

**GÜNEL MƏMMƏDCAMAL qızı TEYMUROVA**

# OSMANLI-RUSİYA MÜNASİBƏTLƏRİ VƏ AZƏRBAYCAN
## (XIX əsrin birinci otuz ili)

**İxtisas: 5507.01 – Beynəlxalq münasibətlər tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2018**

*Dissertasiya Azərbaycan Turizm və Menecment Universitetinin “Beynəlxalq münasibətlər” kafedrasında yerinə yetirilmişdir.*

**Elmi rəhbər:**
Tarix üzrə elmlər doktoru, professor,
Dövlət Mükafatı laureatı **K.K.Şükürov**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru, professor **C.M.Mustafayev**
Tarix üzrə fəlsəfə doktoru **V.U.Umudlu**

**Aparıcı müəssisə:** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “Tarix” kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində 5503.02 – “Vətən tarixi’, 5502.01 – ‘Ümumi tarix’, 5507.01 -“Beynəlxalq münasibətlər tarixi” və 5509.01 – “Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları” ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcələri almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının “___” _________2018-ci il tarixli iclasında saat ____-da keçiriləcəkdir.

**Ünvan:** AZ-1143, Bakı şəhəri, H.Cavid prospekti, 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

**Avtoreferat** “______”__________ 2018-ci ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi
Tarix üzrə fəlsəfə doktoru, dosent **C.Ə.BƏHRAMOV**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XIX əsrin birinci otuz ili Azərbaycan tarixində çox ağır nəticələri ilə dərin izlər qoymuşdur. 1747-ci ildə Nadir şahın qətlindən sonra onun yaratdığı Azərbaycan Əfşarlar imperiyası xanlıqlara parçalandı. XVIII əsrin ortalarından başlayaraq Azərbaycanın birləşdirilməsi uğrunda yarım əsr ərzində aparılan mübarizədə uğur əldə edilmədi. XIX əsrin əvvəllərində çar Rusiyasının işğalı başlanan zaman ölkədə vahid dövlətin olmaması bu prosesə müqaviməti zəiflətdi. Cənubi Qafqaza işğalçı yürüş edən çar Rusiyası XIX əsrin birinci otuzilliyində Azərbaycan, Qacarlar dövləti və Osmanlı imperiyası ilə apardığı müharibələrdə qalib gələrək Şimali Azərbaycanın işğalını başa çatdırdı. Çar Rusiyası Qacarlar ilə imzaladığı Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə uyğun olaraq Cənubi Qafqazdakı işğallarını rəsmiləşdirdi, Azərbaycan çar Rusiyası və Qacarlar arasında iki hissəyə bölündü. Şimali və Cənubi Azərbaycan anlayışları təkcə coğrafi deyil, eyni zamanda siyasi məna kəsb etməyə başladı. Çar Rusiyasının Osmanlı imperiyası ilə 1806-1812 və 1828-1829-cu illər müharibəsindəki qələbələrinin yekun sənədləri olan Buxarest (1812) və Ədirnə (1829) müqavilələri onun Cənubi Qafqazdakı mövqelərini daha da möhkəmləndirdi.Beləliklə, XIX əsrin birinci otuzilliyi Azərbaycanın və onun yerləşdiyi geopolitik məkanın həyatında ciddi dəyişikliklər dövrüdür.Bu tarixin araşdırılması, daha dərindən tədqiq və təhlil edilməsi elmi baxımdan xüsusi aktuallıq kəsb edir.

Azərbaycanın XIX əsrin birinci otuz ili tarixi istər imperiya dövründə, istərsə də Sovet hakimiyyəti illərində ciddi təhriflərə məruz qalmışdır. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev Milli Elmlər Akademiyasının aparıcı alimləri və institut direktorları ilə görüşü zamanı XIX-XX əsrlər Azərbaycan tarixinin yenidən tədqiqindən bəhs edərkən demişdir: “İndi Akademiyanın qarşısında duran vəzifələrdən biri də Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yazılmasıdır”.[1] Qeyd etmək lazımdır ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra XIX əsr tarixinə dair yeni konsepsiyaya əsaslanan bir sıra tədqiqat əsərləri yazılmışdır. Bununla belə, XIX əsrin birinci otuzilliyində Rusiyanın Cənubi Qafqazı işğalı dövründə Osmanlı-Rusiya münasibətlərində, o cümlədən beynəlxalq münasibətlər sistemində Azərbaycanın yeri və rolu kifayət qədər araşdırılmamışdır.

Çar Rusiyası ilə Osmanlı dövləti arasında gedən istər 1806-1812-ci illər, istərsə də 1828-1829-cu illər müharibəsində Azərbaycan tərəflərin maraq

[1] Əliyev H.Ə. Ölkəmizdə elmin inkişafına qayğı dövlət siyasətinin mühüm istiqamətidir / Azərbaycan qəzeti, 1 fevral 1997, № 22.

dairəsində olmuş və bu müharibələrdə mühüm geostrateji əhəmiyyət–kəsb etmişdir. Lakin tarixşünaslıqda bu müharibələrdə Balkanlara xüsusi diqqət ayrılmış, Azərbaycan və bütövlükdə Cənubi Qafqaz probleminə lazımı fikir yetirilməmişdir. Halbuki, hər iki müharibədə ayrıca "Qafqaz cəbhəsi" olmuş, bu müharibələrdə Azərbaycan mühüm yer tutmuşdur. Buxarest və Ədirnə müqavilələrində Qafqaza dair xüsusi maddələr ayrılmışdır. Ədirnə müqaviləsinə görə Osmanlı dövlətindən Cənubi Qafqaza köçürülən erməni əhalisinin böyük əksəriyyətinin Şimali Azərbaycan ərazilərində yerləşdirilməsi etnodemoqrafik vəziyyəti kəskin dəyişdirmişdir. Sonrakı mərhələlərdə də köçürülən ermənilərin məqsədyönlü şəkildə məskunlaşdırıldığı tarixi Azərbaycan torpağı olan İrəvan ərazisində 1918-ci il mayın 28-də erməni dövləti yaradılmışdır.

XIX əsrin birinci otuzilliyindəki çar Rusiyası-Qacarlar və çar Rusiyası-Osmanlı müharibələrində Cənubi Qafqaz müsəlmanları da yaxından iştirak etmiş və özünəməxsus rol oynamışdır. Bu müharibələrdə vuruşan tərəflərin öz məqsədləri naminə Cənubi Qafqaz müsəlmanlarını hərbi əməliyyatlara cəlb etmək cəhdləri, bu istiqamətdə görülən işlər və onların nəticələri, ümumiyyətlə azərbaycanlıların bu müharibələrdə rolu kimi məsələlərin tədqiqata cəlb edilib öyrənilməsi də aktual problemlərdəndir.

Bütün bunlar XIX əsrin birinci otuz ilində "Rusiya-Osmanlı münasibətləri və Azərbaycan" mövzusunun kompleks şəkildə araşdırılmasını şərtləndirir və Azərbaycanın taleyüklü problemlərinin tarixi köklərinin öyrənilərək obyektiv həqiqətlərin müəyyən edilməsinə imkan verir.

**Tədqiqatın xrolonoji çərçivəsi.** Tədqiqat işinin xronoloji çərçivəsi XIX əsrin birinci otuzilliyini – 1801-ci ildən 1830-cu ilə qədər olan dövrü əhatə edir. Xronoloji çərçivənin başlanğıcı kimi, çar Rusiyasının Cənubi Qafqazda fəallaşması və bölgənin işğalına başlaması, son həddi isə Cənubi Qafqazın işğalının yekunlaşması və ermənilərin Şimali Azərbaycan torpaqlarına kütləvi köçürülməsi prosesinin ilk dalğasının başa çatdırılması götürülmüşdür. Tədqiq olunan problemi xronoloji cəhətdən şərti olaraq bir neçə dövrə bölmək olar: Çar Rusiyanın Cənubi Qafqaz müdaxiləsindən çar Rusiyası-Osmanlı müharibəsinin başlanmasınadək olan dövr (1801-1806-cı illər); 1806-1812-ci illər çar Rusiyası-Osmanlı müharibəsi dövrü; Buxarest sülhündən yeni çar Rusiyası-Osmanlı müharibəsinin başlanmasınadək olan dövr (1812-1828); 1828-1829-cu illər çar Rusiyası-Osmanlı müharibəsi dövrü; Ədirnə müqaviləsindən ermənilərin köçürülməsi prosesinin başa çatmasınadək olan dövr (1829-1831).

**Mövzunun öyrənilmə vəziyyəti.** "Osmanlı-Rusiya münasibətləri və Azərbaycan (XIX əsrin birinci otuz ili)" problemi indiyədək tarix elmində ayrıca tədqiqat obyekti olmamışdır. Bununla belə, Azərbaycanın taleyüklü

məsələlərinin həll olunduğu həddindən çox həssas, mürəkkəb və ziddiyyətli məqamlarla zəngin olan tədqiq etdiyimiz dövrlə bağlı istər Azərbaycanda, istərsə də Azərbaycandan kənarda yazılmış bir çox əsərlərdə mövzumun bu və ya digər məsələləri ilə bağlı müəyyən faktlar söylənilmiş, mülahizələr irəli sürülmüşdür.

Rusiya tarixşünaslığında Cənubi Qafqazın rus qoşunları tərəfindən işğal edilməsindən az sonra bu işğal prosesi ilə bağlı əsərlər nəşr olunmağa başladı və XIX əsrin sonlarına qədər bir-birinin ardınca bir sıra əsərlər meydana çıxdı. Bu əsərlərin müəlliflərinin bir qismi XIX əsrin birinci otuzilliyində çar Rusiyasının Qafqaz korpusunda xidmət edən və bölgədə gedən hadisə və proseslərin birbaşa iştirakçıları olmuşlar. Onlardan P.Zubovun[1], V.A.Pottonun[2], N.İ.Uşakovun[3], N.F.Dubrovinin[4] və digər müəlliflərin əsərləri mövzunun öyrənilməsi baxımından əhəmiyyətli hesab oluna bilər. Bu əsərlərdə bir növ rus qoşunlarının Qafqaz cəbhəsindəki əməliyyatları, "zəfər yürüşləri" tərənnüm edilir, hadisə və proseslər birtərəfli polemika əsasında işıqlandırılır. Lakin bütün bu kimi məhdud tərəflərinə baxmayaraq, bu əsərlərdə yer alan bir çox tarixi faktlar mövzumuz baxımından qiymətlidir və tədqiqat işində bu əsərlərin faktik məlumatlarından istifadə edilmişdir.

Knyaz A.P.Şerbatovun "General feldmarşal knyaz Paskeviç, onun həyat və yaradıcılığı" adlı əsəri[5] İ.Paskeviçin Qafqazdakı rus qoşunlarının baş komandanı dövründə onun fəaliyyətini öyrənmək baxımından əhəmiyyətlidir. Paskeviçdən əvvəl bu vəzifədə olan A.Yermolovun fəaliyyətinin kəskin tənqid olunduğu, İ.Paskeviçin fəaliyyətinin isə sanki mədh olunduğu bu əsərdə 1828-1829-cu illər Rusiya-Osmanlı müharibəsi dövründə Qafqaz cəbhəsindəki vəziyyəti və bölgədə gedən prosesləri öyrənmək baxımından əhəmiyyətlidir.

S.Qlinkanın əsəri[6] çar Rusiyasının erməniləri Qacarlar ndan Cənubi Qafqaza köçürülməsinə dair siyasətinin hazırlanması və həyata keçirilməsi məsələlərini öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir. Müəllif,

---

[1] Зубов П. Подвиги русских воинов в странах Кавказских с 1800 до 1834 г. Т. II, Ч. 3. СПб., 1836.

[2] Потто В.А. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях. В 5 томах. Т. II, СПб., 1886; Утверждение русского владычества на Кавказе. Под редакцией генераль-майора Потто В.А. Т. 1. Тифлис, Топография Я.И.Либермана, 1901; Потто В. А. Первые добровольцы Карабага в эпоху водворения русского владычества. 2-е изд., Тифлис, 1902; Потто В.А. Кавказская война. Персидская война 1826-1828 гг. Т. 3. Ставрополь, 1993.

[3] Ушаков Н.И. История военных действии а Азиатской Турции в 1828 и 1829 годах. В двух частях. Част 1-2. СПб., Тип. Э. Прача и К, 1836.

[4] Дубровин Н.Ф. Закавказье от 1803 по 1806 г. СПб., 1866; Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе. В 6 томах. СПб., 1871-1888.

[5] Шербатов А.П. Генерал фельдмаршал князь Паскевич, его жизнь и деятельность. В 3-х томах. СПб., 1890-1891.

[6] Qlinka S.N. Azərbaycan ermənilərinin Rusiya hüdudlarına köçürülməsinin təsviri. Bakı, "Azərbaycan" nəşriyyatı, 1995.

köçürmə prosesini ətraflı təsfir etməklə yanaşı bu prosesin iştirakçılarına aid bir çox sənəd və materialları da əsərə daxil etmiş və çar Rusiyasının Cənubi Qafqazdakı fəaliyyətində ermənilərin oynadığı rolu xüsusi olaraq vurğulamışdır.

İrəvan şəhərinin rus qoşunları tərəfindən işğalından sonra bu bölgədə yaradılan qondarma "erməni vilayəti"ndə əhalinin kameral təsfirini aparan İ.Şopenin 1852-ci ildə nəşr etdiyi bu kameral təsfirin nəticələri[1] rus işğalından əvvəl və işğaldan sonra İrəvan və Naxçıvan ərazilərində yaşayan əhalinin say, cins və milli tərkibini öyrənmək baxımından əvəzsiz rol oynayır.

A.P.Qizettinin 1901-ci ildə Tiflisdə nəşr etdirdiyi əsərindən[2] Rusiyanın Qafqaz cəbhəsində apardığı müharibələr nəticəsində məruz qaldığı əsgər və digər itkiləri öyrənmək mümkündür.

Q.A.Ezovun 1898-ci ildə nəşr olunmuş əsəri[3] Rusiyanın Qafqazda Azərbaycan xanlıqlarına, eyni zamanda Qacarlar və Osmanlı dövlətlərinə qarşı apardığı müharibələr zamanı ermənilərdən necə faydalandığını öyrənmək baxımından qiymətlidir.

N.N.Şavrovun 1911-ci ildə Peterburqda nəşr olunmuş əsəri[4] XIX əsrin birinci otuz ilində və sonrakı illərində Qacarlar və Osmanlı dövlətlərindən Cənubi Qafqaza köçürülən ermənilərin say dinamikasını öyrənmək baxımından müstəsna əhəmiyyətə malik bir əsərdir.

Bəhs edilən dövrlə bağlı rus sovet tarixşünaslığında nəşr olunmuş əsərlərdə müəlliflər, dövrün tələbləri ilə bağlı bir qayda olaraq Rusiyanın Cənubi Qafqazdakı işğalçılıq siyasətini pərdələməyə, hadisələrin əsl mahiyyətini gizlətməyə çalışmış, rus işğalını "könüllü birləşmə", "Rusiyaya olan meyl" kimi konsepsiyalar baxımından işıqlandırmış, Osmanlı dövlətinin Cənubi Qafqaz və Azərbaycanla bağlı siyasəti və fəaliyyəti isə "işğalçılıq" nöqteyi-nəzərindən qiymətləndirilmişdir. Bu əsərlərin konseptual baxımından hadisə və proseslərə yanaşması doğru olmasa da, onlar faktik materiallar baxımından qiymətləndirilə bilər.

[1] Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи. СПб., Типография Императорской Академии наук, 1852.

[2] Гизетти А.А. Сборник сведений о потерях кавказских войск во время войн (1801-1885). Тифлис, 1901.

[3] Эзов Г.А. Отношения Петра Великого с армянским народом. СПб., 1898.

[4] Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. СПб., Типография редакции периодических издании Министерства Финансовь, 1911.

XVIII-XIX əsrlərdə Rusiyanın Qafqaz siyasətini araşdıran N.A.Smirnov çarizmi tənqid etsə də, onun Cənubi Qafqazda apardığı işğalçılıq siyasətini pərdələməyə çalışır.[1]

Rus sovet tarixçilərindən A.V.Fadeyevin əsəri[2] XIX əsrin birinci otuz ilində çar Rusiyasının Qafqazdakı fəaliyyətini və Osmanlı dövləti ilə münasibətlərini öyrənmək baxımından əhəmiyyətlidir. Müəllif, Rusiyanın Qafqazdakı fəaliyyətini düzgün olaraq müstəmləkəçilik siyasəti kimi şərh edir və çar Rusiyası-Osmanlı münasibətlərində Qafqaz problemini "Şərq siyasəti"nin tərkib və əsas hissəsi kimi işıqlandırır. Müəllifin Buxarest sülhü və Qafqazın sərhədləri probleminə dair əsəri[3] də mövzumuz baxımından bəzi mətləblərə aydınlıq gətirmək baxımından maraq kəsb edir.

H.M.İbrahimbəylinin "XIX əsrin birinci otuz ilində Rusiya və Azərbaycan" əsəri[4] faktik materiallar baxımından tədqiq etdiyimiz mövzu üçün əhəmiyyətli hesab oluna bilər. Lakin müəllif, hadisələri dövrün stereotipləri baxımından işıqlandırır, Rusiya-Osmanlı müharibələrində bəzi imtiyazlar əldə etmək məqsədilə rus qoşunlarının tərkibində vuruşan məhdud sayda azərbaycanlıların fəaliyyətini "Azərbaycan xalqının Osmanlı işğalçılarına qarşı mübarizəsi" kimi təqdim etməyə çalışır.

V.İ.Şeremetin əsəri[5] 1828-1829-cu illər Rusiya-Osmanlı müharibəsinin ümumi nəticələrini və Ədirnə danışıqlarını öyrənmək baxımından əhəmiyyətlidir.

Ümumiyyətlə, bəhs edilən dövrlə bağlı Rusiya tarixşünaslığında yazılan əsərlər yalnız rus mənbələrinə istinadən yazıldığından bütün əsərlərdə hadisə və proseslərə yanaşmada açıq-aydın birtərəflilik hökm sürür.

Azərbaycan tarixşünaslığına gəldikdə ilk növbədə qeyd etməliyik ki, dövrün müasirləri olan Abbasqulu ağa Bakıxanov, Mirzə Adıgözəl bəy, Mirzə Camal Cavanşir, Əhməd bəy Cavanşir və digər Azərbaycan tarixçilərinin əsərləri[6] XVIII əsrin sonu − XIX əsrin əvvəllərində Azərbaycanda və bütövlükdə Cənubi Qafqazda hərbi-siyasi vəziyyətin ümumi mənzərəsini öyrənmək baxımından qiymətlidir.

R.İsmayılavon 1923-cü ildə Bakıda nəşr olunan "Azərbaycan tarixi", C.Zeynaloğlunun 1924-cü ildə Ankarada nəşr olunan "Müxtəsər Azərbaycan

---

[1] Смирнов Н.А. Политика России на Кавказе в XVIII-XIX веках. Москва, Социально-экономический литературы,1958.

[2] Фадеев А.В. Россия и Кавказ первой трети XIX в. Москва, Из-во АН СССР, 1960.

[3] Фадеев А.В. Бухарестский мир 1812 г. и вопрос Кавказских границах // Ученые записки историко-филол. ф-та Ростов Н/Д. ун-та, 1952, Т. XXI, Сер. История, вып. 3, с. 79-86.

[4] Ибрагимбейли Х.М. Россия и Азербайджан в первой трети XIX века. Москва, 1969.

[5] Шеремет В.И. Турция и Адрианопольский мир 1829 г. Москва, Из-во «Наука», 1975.

[6] Бакиханов А. Гюлистан-и Ирам. Баку, Элм, 1991; Qarabağnamələr.I-II kitab. Bakı, 1991.

tarixi" əsərlərində[1] XIX əsrin əvvəllərində Azərbaycan və bütövlükdə Cənubi Qafqazda cərəyan edən hadisə və proseslərə səthi də olsa, obyektiv qiymət verilir.

Tədqiq etdiyimiz dövrün Azərbaycan sovet tarixşünaslığında nəşr olunmuş əsərlər[2] də rus sovet tarixşünaslığında olduğu kimi dövrün stereotiplərindən kənara çıxa bilməmiş, hadisələrin əsl mahiyyətini gizlətməyə çalışmışlar.

Azərbaycan müstəqilliyinə qovuşduqdan sonra tədqiq etdiyimiz dövrün obyektiv araşdırılması istiqamətində mühüm tədqiqatlar aparılmış, bir sıra sanballı əsərlər meydana gəlmişdir. Bu əsərlər içərisində 1996 və 2009-cu illərdə nəşr olunan "Azərbaycan tarixi" əsərində[3], yeddi cildlik "Azərbaycan tarixi" əsərində[4] XIX əsrin əvvəllərində Rusiyanın Cənubi Qafqazda və Azərbaycanda həyata keçirdiyi işğalçılıq siyasəti obyektiv işıqlandırılmışdır.

K.Şükürovun əsəri[5] XIX əsrin əvvəllərində çar Rusiyası-Qacarlar münasibətləri və Şimali Azərbaycan torpaqlarının çar Rusiyası tərəfindən işğalı prosesini öyrənmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Əsər Türkmənçay müqaviləsinin imzalanmasına qədər və bu müqavilənin imzalanmasından sonrakı dövrdə Azərbaycan torpaqlarının bölüşdürülməsi məsələsi ətrafında gedən çar Rusiyası-Qacarlar danışıqlarını xronika şəklində öyrənmək və bu prosesin mahiyyətini açmaq baxımından mühüm əhəmiyyət kəsb edir.

Y.Mahmudov və K.Şükürovun "Azərbaycan: Beynəlxalq münasibətlər və diplomatiya tarixi. 1639-1828. Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları" əsəri[6] bəhs etdiyimiz dövrdə Rusiya və Osmanlı dövlətləri arasında imzalanan müqavilə və hüquqi aktları öyrənmək baxımından xüsusi əhəmiyyət kəsb edir.

Tədqiq etdiyimiz mövzu baxımından H.Sadıqovun 1991-ci ildə nəşr olunmuş əsəri[7] maraq kəsb edir. Müəllif XVIII əsrin sonu − XIX əsrin

---

[1] İsmayılov R. Azərbaycan tarixi. Bakı, Azərnəşr, 1993; Zeynaloğlu C.Müxtəsər Azərbaycan tarixi. Bakı, Azərbaycan Dövlət Kitab Palatası, 1992.

[2] Mehdiyev Q. Azərbaycanın Rusiya ilə birləşməsi və bunun tarixi əhəmiyyəti. Bakı, 1952; Azərbaycanın Rusiya ilə birləşdirilməsi və onun mütərəqqi iqtisadi və mədəni nəticələri (XIX-XX əsrin əvvəlləri). Bakı, Azərb. SSR EA Nəşriyyatı, 1956; Великое дружба азербайджанского и русского народов: с древних времен до наших дней. Сост.: П.А.Азизбекова, Ш.Курбанов. Баку, Из-во АН Азерб. ССР, 1964; Babayev A. Rusiyaya qoşulmaq ərəfəsində. Bakı, Azərnəşr, 1988; Əsədov F. Dar gündə yaxşı arxa. Bakı, Azərnəşr, 1988.

[3] Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci ilə qədər). Red. S.Əliyarlı. Bakı, Çıraq, 2009.

[4] Azərbaycan tarixi. 7 cilddə. IV cild. Bakı, Elm, 2000.

[5] Şükürov K. Türkmənçay – 1828: Tarixi xronika. Bakı, Çaşıoğlu, 2006.

[6] Mahmudov Y.M., Şükürov K.K. Azərbaycan: Beynəlxalq münasibətlər və diplomatiya tarixi. 1639-1828. Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları. Dörd cilddə. I cild. Bakı, 2009.

[7] Sadıqov H. Rusiya-Türkiyə münasibətləri və Cənubi Qafqaz problemi (1787-1829-cu illər). Bakı, Elm, 1991.

əvvəllərində çar Rusiyası – Türkiyə münasibətlərində Cənubi Qafqaz probleminə diqqət çəkir. Əsər faktik materialları baxımından maraq doğurur.

T.Mustafazadənin əsəri[1] XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Osmanlı-Azərbaycan münasibətlərinə həsr olunmuşdur. Əsərdə XIX əsrin əvvəllərində Rusiya və Osmanlı dövlətlərinin Azərbaycana münasibətdə yeritdikləri siyasətlə bağlı maraq doğuran fakt və mülahizələr yer almışdır.

G.Nəcəflinin əsərləri[2] XVIII əsrin ikinci yarısında Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə əlaqələri və Rusiyanın Cənubi Qafqazda erməni dövləti yaratmaq istiqamətindəki fəaliyyətini öyrənmək baxımından əhəmiyyətlidir.

2010-cu ildə Y.Mahmudovun ümumi rəhbərliyi və redaktəsi altında nəşr olunan və sonrakı illərdə bir çox xarici dillərə tərcümə edilən "İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" əsəri[3] çar Rusiyasının Cənubi Qafqazda həyata keçirdiyi işğalçılıq və ermənilərin köçürülməsi siyasətinin əsl mahiyyətini üzə çıxarmaq, İrəvan xanlığı ərazisində ermənilərin məskunlaşdırılması, bölgənin etnodemoqrafiq vəziyyətinin dəyişdirilməsi və bu ərazidə erməni dövlətinin yaradılması prosesini öyrənmək baxımından xüsusi əhəmiyyət kəsb edir.

V.Arzumanlı və N.Mustafanın 1998-ci ildə nəşr olunan əsəri[4] Cənubi Qafqaza ermənilərin köçürülməsi prosesini öyrənmək baxımından əhəmiyyətlidir.

F.Əliyev və U.Həsənovun "İrəvan xanlığı" əsərində[5] də mövzumuzla bağlı bir çox maraq doğuran fakt və mülahizələr yer almışdır.

M.Süleymanovun əsərləri[6] XVIII əsr və XIX əsrin birinci otuz ilində çar Rusiyasının Cənubi Qafqazda həyata keçirdiyi işğalçılıq siyasətini və bu işğal prosesində ermənilərin oynadıqları rolları öyrənmək baxımından diqqəti cəlb edir.

Bəhs edilən dövrlə bağlı müasir Türkiyə tarixşünaslığında nəşr olunan əsərlər də maraq doğurur. XIX əsrin birinci otuzilliyində çar Rusiyası və

[1] Mustafazadə T. XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı, Elm, 2002.

[2] Nəcəfli G. Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri (XVIII əsrin II yarısı). Bakı, Nurlan, 2002; Nəcəfli G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaratmaq cəhdləri. Bakı, Nurlan, 2007.

[3] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Elmi red. Y.Mahmudov. Bakı, Azərbaycan, 2010.

[4] Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri: Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı, Qartal, 1998.

[5] Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı, Şərq-Qərb, 2007.

[6] Süleymanov M. Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən. Bakı, Hərbi nəşriyyat, 2008; Süleymnov M. Gülüstan müqaviləsi. II hissə. Bakı, Elm və Təhsil, 2014; Süleymanov M. Türkmənçay müqaviləsi. Bakı, "Elm və Təhsil", 2015.

Osmanlı dövlətlərinin Qafqaz siyasəti və çar Rusiyası-Osmanlı münasibətləri ilə bağlı türk tarixçilərindən Ahmed Cevdet paşa, Ahmed Muhtar paşa, Ş.Turan, A.N.Kurat, C.Gökçe, K.Beydili, S.Kocabaş, M.Budak, A.Kara və digərlərinin əsərləri[1] mövzumuz baxımından mühüm əhəmiyyət kəsb edir. Lakin onu da qeyd etmək lazımdır ki, Türkiyə tarixşünaslığında bəzi əsərlər istisna olmaqla əksəriyyət etibarilə yalnız türk mənbələrinə istinadən yazıldığından bu əsərlərdə birtərəflilik hökm sürür.

Tədqiqat işi yazılarkən problemlə bağlı erməni müəlliflərinin əsərlərinə[2] də müraciət eddilmişdir. Erməni müəllifləri bir qayda olaraq tarixi saxtakarlıq edərək, İrəvan xanlığı və ətraf Azərbaycan ərazilərinin Rusiya tərəfindən işğalına "Şərqi Ermənistanın Rusiyaya birləşdirilməsi" kontekstindən yanaşır, Rusiya-Osmanlı müharibələri dövründə Osmanlı təbəələri olan ermənilərin vətənlərinə xəyanət edərək çar Rusiyasına qulluq etmələrini qəhrəmanlıq kimi təqdim edirlər, lakin Türkmənçay və Ədirnə müqavilələrindən sonra Qacarlar və Osmanlı dövlətlərindən Cənubi Qafqaza köçürülərək tarixi Azərbaycan ərazilərində məskunlaşdırılan ermənilərin bölgənin aborigen əhalisi olmadığını dolayısı ilə etiraf etmiş olurlar.

Beləliklə, tarixşünaslığın qısa xülasəsindən də aydın olur ki, dissertasiya işi üçün seçilmiş "Osmanlı-Rusiya münasibətləri və Azərbaycan (XIX əsrin birinci otuz ili)" mövzusu indiyə qədər istər vətən, istərsə də xarici ölkə tarixşünaslıqlarında ayrıca tədqiqat obyekti olmamışdır. Odur ki, bu problemin ilkin arxiv sənədləri və elmi ədəbiyyat əsasında kompleks şəkildə öyrənilməsi tarixşünaslıqda mövcud olan boşluğun doldurulmasında əhəmiyyətli rol oynaya bilər.

**Mövzunun mənbə bazası.** Tədqiqatın gedişində mövzu ilə bağlı xeyli sayda arxiv sənədləri elmi dövriyyəyə cəlb edilmiş və təhlil olunmuşdur. Bu

---

[1] Ahmet Cevdet Paşa. Tarih-i Cevdet. 1822-1895. 12 Cilt. İstanbul, Dar üt-tibaat ül-amare Matbaası, 1858-1883, C. VI, VII, IX.; Ahmet Muhtar Paşa. 1244-1245 (1828-1829) Türkiye Rusiya Seferi ve Edirne Andlaşması. C. I. Ankara, 1928; Turan Ş. 1829 Edirne Antlaşması/Ankara Üniversitesi Dil, Tarih, Coğrafya Dergisi, Sayı 8, no. 1-2, Ankara, Mart-Haziran, 1951, s. 111-151; Kurat A.N. Türkiye ve Rusya. Ankara, Kültür Bakanlığı Yayınları, 1990;Gökçe C. Kafkasya ve Osmanlı İmperatorluğu'nun Kafkasya Siyaseti. İstanbul, Has-Kutulmuş Matbaası, 1979; Beydili K. 1828-1829 Osmanlı-Rus savaşında Doğu Anadolu'dan Rusya'ya Göçürülen Ermeniler // Belgeler. Cilt XIII, Sayı 17, Ankara, Türk Tarih Kurumu, 1988, s. 365-468; Kocabaş S. Tarihde Türk-Rus Mücadelesi. İstanbul, 1989; Budak M. Osmanlı-Rus İlişkilerinde Kafkasya // Avrasya Etüdleri, Cilt 1, Sayı 4, Kış 1995, s. 101-128; Kara A. 1828-29 Osmanlı-Rus Savaşı ve Anadoluda Alınan Tedbirler // Balıkesir Universitesi Sosyal Bilimler Dergisi, Aralık, 2005, C. 8, S. 14, s. 115-131.

[2] Балаян Б.П. Дипломатическая история русско-иранской войны и присоединение Восточной Армении к России. Ереван, 1988; Тавакалян Н.А. Переселение армян из Персии и Турции в Закавказье после присоединения Восточной Армении к России // Историко-филологический журнал АН Арм. ССР. Ереван, 1978, № 3 (82), с. 26-40; Развитие Еревана после присоединение Восточной Армении к России. (Сбор. док.). Ереван, Изд-во Ерев. ун-та, 1978; Присоединение Восточной Армений к России. Сборник документов. Том 1. (1801-1813). Редактор: академик АН Арм. ССР Ц.П.Агаян. Ереван, Изд. Академии Наук Арм. ССР, 1972.

sənədlərin bir qismi Türkiyə arxivlərində saxlanılır, digər qismi isə müxtəlif illərdə Azərbaycan, Rusiya, Türkiyə və Gürcüstanda sənədlər toplusu halında çap olunmuşdur.

Dissertasiyanın mənbə bazasının böyük bir hissəsini Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivində (BOA) saxlanılan sənəd və materiallar təşkil edir. Qeyd edilən arxivdə Xətti-Hümayun (HAT) fon kodu altında saxlanılan bu sənəd və materiallar XIX əsrin birinci otuz illiyində Osmanlı dövlətinin şərq vilayətlərinin sərəsgərləri və ordu komandanlıqları ilə Osmanlı sultanı və sədrəzəmi arasında gedən və özündə Qafqazdakı vəziyyəti, çar Rusiyası-Osmanlı müharibəsinin Qafqaz cəbhəsində gedişi, həmin dövrdə Azərbaycan xanlıqlarının və əhalisinin bu müharibəyə münasibəti və digər mühüm məsələləri əks etdirən yazışmalardır.

Mövzu işlənərkən Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin sənəd və materiallarına da müraciət edilmişdir.

Dissertasiyanın mənbə bazasının böyük bir hissəsini də çap olunmuş arxiv sənədləri təşkil edir. Çap olunmuş rus arxiv sənədləri içərisində A.Berjenin ümumi redaktəsi ilə tərtib olunaraq 1866-1904-cü illərdə Tiflisdə nəşr olunan Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları[1] (AKAK) xüsusi yer tutur. Bu aktlarda çar Rusiyasının Qafqaz siyasəti və bölgədə baş verən hadisə və proseslər, o cümlədən Rusiya-Osmanlı münasibətləri ilə bağlı minlərlə sənəd, fərman, göstəriş, raport, məktub və digər sənədlər toplanmışdır. Tədqiqat zamanı bu aktlar toplusunun I-VII cildlərindən istifadə edilmişdir.

Müxtəlif illərdə nəşr edilən Rusiya qanunvericilik aktları və Xarici İşlər Nazirliyinin sənədlər toplularında[2] XIX əsrin birinci otuzilliyində çar Rusiyasının Osmanlı dövləti ilə münasibətlərinə dair bir çox mühüm sənəd və maateriallar yer almışdır. Bu toplularda mövzumuz baxımından mühüm dəyərə malik olan sənədlər elmi dövriyyəyə gətirilərək təhlil edilmişdir.

Cənubi Qafqazın Rusiya tərəfindən işğalı dövrü ilə bağlı Ermənistanda nəşr olunan sənədlər toplusuna[3] da müraciət edilmişdir.

Qafqaz və Azərbaycanla bağlı çap olunmuş Osmanlı arxiv sənədləri 1993-cü ildə Ankarada nəşr olunan iki cildlik "Osmanlı dövleti ilə Azerbaycan

---

[1] Акты собранные Кавказской Археографической комиссией. Т. I-XII, Тифлис, 1866-1904.

[2] Полное собрание законов Российской империи. Собр. Второе. Т. III, 1828. СПб., 1830; Договоры России с Востоком, политические и торговые. Собрал и издал Т.Юзефович. СПб.: 1869; Внешняя политика России XIX и начала XX вв. Документы Российского Министерства Иностранных Дел. Том 1. Москва: 1974; Внешняя политика России XX и начала XX века. Документы Российского Министерства Иностранный Дель. Сер. II, Т. VIII, Москва: 1994; Под стягом России: Сборник архивных документом. Москва: Русская книга, 1992.

[3] Развитие Еревана после присоединение Восточной Армении к России. (Сбор. док.). Ереван: Изд-во Ерев. ун-та, 1978.

türk hanlıqları arasındakı münasebetlere dair arşiv belgeleri"[1] adlı sənədlər toplusunda da mövzumuzla bağlı bəzi sənədlər yer almışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** XIX əsrin birinci otuzilliyində çar Rusiyası və Osmanlı dövlətlərinin Cənubi Qafqaz siyasətində Azərbaycanın yerini və oynadığı rolu, bu dövlətlərin Azərbaycanla bağlı planlarını və onların bu planları reallaşdırmaq üçün həyata keçirdikləri hərbi-siyasi tədbirlərin kompleks şəkildə araşdırılması tədqiqatın əsas məqsədidir. Bu məqsədə nail olmaq üçün konkret olaraq qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Rusiya və Osmanlı dövlətlərinin Azərbaycan və bütövlükdə Cənubi Qafqazla bağlı planlarının, habelə Şimali Azərbaycan xanlıqlarının çar Rusiyası tərəfindən işğalı prosesinə Osmanlı dövlətinin münasibətinin araşdırılması;
- XIX əsrin əvvəllərində dəyişən beynəlxalq vəziyyət fonunda Rusiya-Osmanlı münasibətlərini müharibə həddinə gətirən səbəblərin beynəlxalq münasibətlər kontekstindən öyrənilməsi və təhlili;
- 1806-1812-ci illər Rusiya-Osmanlı müharibəsinin Qafqaz cəbhəsində gedişi və Osmanlı dövlətinin Azərbaycanda və bütövlükdə Cənubi Qafqaz müsəlmanları arasında apardığı anti-Rusiya kampaniyasının, habelə Şimali Azərbaycan xanlıqlarının mövqeyinin və bu müharibədə oynadıqları rolların araşdırılması və onun nəticələrinin təhlil edilməsi;
- 1806-1812-ci illər Rusiya-Osmanlı müharibəsinin və Buxarest sülhünün Azərbaycan üçün doğurduğu nəticələrin, iki Rusiya-Osmanlı müharibəsi arasındakı dövrdə Rusiya və Osmanlı dövlətlərinin Azərbaycana münasibətdə yeritdikləri siyasətin araşdırılması və təhlil edilməsi;
- 1828-1829-cu illər Rusiya-Osmanlı müharibəsinin səbəblərinin, müharibə edən tərəflərin Azərbaycanın hərbi-strateji imkanlarından yararlanmaq cəhdlərinin və Qafqaz cəbhəsində aparılan hərbi əməliyyatların ümumi nəticələrinin araşdırılması və təhlil edilməsi;
- Ədirnə müqaviləsinin anti-Azərbaycan maddələrinin və bu maddələrin Azərbaycan üçün nəticələrinin kompleks şəkildə araşdırılması;

**Tədqiqatın predmeti.** Dissertasiya işinin başlıca predmeti kimi 1801-1830-cu illərdə Rusiya və Osmanlı dövlətləri arasında Azərbaycanla bağlı cərəyan edən hərbi-siyasi hadisə və proseslər tədqiq edilmişdir.

**Tədqiqat işinin metodoloji əsası.** Tədqiqatın metodoloji əsasını müqayisəli-tənqidi və sistemli analiz, tarixi hadisələrə kompleks yanaşma və obyektivlik prinsipləri təşkil edir. Tədqiqat zamanı həmçinin, tarixi

---

[1] Osmanlı Devleti İle Azerbaycan Türk Hanlıkları Arasındakı Münasebetlere Dair Arşiv Belgeleri. 2 Ciltde. (1575-1918). Ankara: T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı, 1993.

alternativlik prinsipi əsas götürülmüş, Osmanlı mənbələri ilə Rusiya mənbələrinin müqayisəli-tənqidi təhlilinin aparılmasına üstünlük vermişdir.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan dissertasiya işində tarixşünaslıqda ilk dəfə olaraq "Osmanlı-Rusiya münasibətləri və Azərbaycan (XIX əsrin birinci otuz ili)" mövzusu kompleks şəkildə ayrıca problem kimi elmi nəzəri cəhətdən ətraflı tədqiq olunmuşdur. Tədqiqat zamanı mövzu ilə bağlı Osmanlı və Rusiya mənbələri, o cümlədən geniş tarixi ədəbiyyat ətraflı araşdırılaraq aşağıdakı elmi yeniliklər əldə edilmişdir:

-XIX əsrin əvvəllərində Rusiya-Osmanlı münasibətlərində Azərbaycanın yeri və oynadığı rol müəyyən edilmiş, XIX əsrin əvvəllərində Rusiya-Osmanlı münasibətlərini müharibəyə gətirən səbəblər dəyişən beynəlxalq münasibətlər kontekstindən öyrənilmiş və ətraflı təhlil edilmişdir;

- XIX əsrin əvvəllərində çar Rusiyasının Şimali Azərbaycan xanlıqlarını işğalı prosesi Rusiya-Azərbaycan müharibəsi kimi öyrənilmiş və bu prosesdə Osmanlı dövlətinin yeri və rolu və verdiyi dəstək müəyyən edilmişdir;

- 1806-1812-ci illər Rusiya-Osmanlı müharibəsinin Qafqaz cəbhəsində gedişi və Azərbaycana təsiri, Azərbaycan xanlıqlarının mövqeyi, habelə Osmanlı dövlətinin Şimali Azərbaycanda və bütövlükdə Cənubi Qafqaz müsəlmanları arasında apardığı anti-Rusiya kampaniyası və onun rus işğalına qarşı aparılan azadlıq müharibəsinə təsiri aydınlaşdırılmışdır;

- 1806-1812-ci illər Rusiya-Osmanlı müharibəsinin və Buxarest sülhünün Azərbaycan üçün doğurduğu nəticələr araşdırılmış və ətraflı təhlil edilmişdir;

- İki Rusiya-Osmanlı müharibəsi arasındakı dövrdə Rusiya və Osmanlı dövlətlərinin Azərbaycana münasibətdə yeritdikləri siyasət, 1828-1829-cu illər Rusiya-Osmanlı müharibəsinin səbəbləri və müharibə dövründə Qafqaz cəbhəsində aparılan hərbi əməliyyatların ümumi nəticələri Osmanlı və Rusiya mənbələri əsasında araşdırılmış, tənqidi təhlillər aparılmış və hadisə və proseslərin əsl mahiyyətinin açılmasına cəhd göstərilmişdir;

- 1828-1829-cu illər Rusiya-Osmanlı müharibəsi dövründə müharibə edən tərəflərin Şimali Azərbaycanın hərbi-strateji imkanlarından yararlanmaq cəhdləri tədqiq edilmiş və bunların Azərbaycan, eyni zamanda Rusiya və Osmanlı dövlətləri üçün doğurduğu nəticələr aydınlaşdırılmışdır;

- Ədirnə müqaviləsinin anti-Azərbaycan maddələrinin və bu maddələrin Azərbaycan üçün nəticələrinin kompleks şəkildə araşdırılmış və təhlillər aparılmışdır;

- Rusiya imperiyasının Ədirnə müqaviləsinə görə, erməniləri Osmanlı dövlətindən Şimali Azərbaycana köçürməsinə dair siyasətinin hazırlanması və həyata keçirilməsi prosesi faktik sənəd və materiallar əsasında kompleks

şəkildə araşdırılmış, Ədirnə müqaviləsindən sonra ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi və bu köçürmə prosesinin Azərbaycan üçün doğurduğu ağır nəticələr aydınlaşdırılmış və geniş təhlil edilmişdir.

**Tədqiqat işinin nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işində toplanmış çoxsaylı arxiv sənəd və materialları, aparılmış təhlillər və irəli sürülmüş təkliflər XIX əsrin birinci otuzilliyində Osmanlı-Rusiya münasibətlərinə və bu münasibətlərdə Azərbaycan probleminə yeni yanaşma prizmasından müəyyən elmi maraq kəsb edir. Tədqiqat işində əldə edilən yekun elmi nəticələr XIX əsrin birinci otuzilliyi dövründə Osmanlı-Rusiya münasibətləri və Azərbaycan, eyni zamanda Osmanlı-Azərbaycan, Rusiya-Azərbaycan münasibətləri, Azərbaycan və bütövlükdə Qafqazın tarixi ilə bağlı tədqiqat işlərinin aparılmasında və ümumiləşdirilmiş əsərlərin yazılmasında istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Turizm və Menecment Universitetinin "Beynəlxalq münasibətlər" kafedrasında yerinə yetirilmişdir. Dissertasiya işinin əsas müddəaları dissertantın Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyyə etdiyi elmi nəşrlərdə çap olunmuş məqalələrində, habelə respublika və beynəlxalq elmi konfranslarda etdiyi məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, 3 fəsil, 10 paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## II DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və elmi əhəmiyyəti əsaslandırılmış, xronoloji çərçivəsi göstərilmiş, problemin öyrənilmə səviyyəsi və mənbəşünaslığı şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmişdir. Həmçinin, tədqiqatın metodoloji əsası, elmi yeniliyi və praktiki əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın **"1806-1812-ci illər Osmanlı-Rusiya müharibəsi və Azərbaycan"** adlı birinci fəsli dörd yarımfəsildən ibarətdir. "**1806-1812-ci illər müharibəsi ərəfəsində Osmanlı-Rusiya münasibətləri, müharibə- nin başlanması və Qafqaz cəbhəsində vəziyyət"** adlanan birinci yarımfəsildə çar Rusiyası və Osmanlı dövlətlərinin Cənubi Qafqazda güddükləri strateji niyyətlər, onların planları və müharibənin gedişi təhlil olunmuşdur.

XVII əsrin sonu – XVIII əsrin əvvəllərindən başlayaraq rus çarı I Pyotrun qonşu ölkələr hesabına öz ərazilərini genişləndirmək və isti dənizlərə çıxmaq siyasəti Rusiya imperiyasını Osmanlı dövləti ilə qarşı-qarşıya qoydu. Krım xanlığını itirən Osmanlı dövləti bütün Qafqaza təsir göstərmək üçün əsas imkanından məhrum olmuş, buna görə də Cənubi Qafqazın Osmanlı dövləti

üçün əhəmiyyəti artmışdı. 1768-1774-cü illər müharibəsindən sonra Azərbaycan xanlıqlarına diqqəti artıran Osmanlı hökuməti Rusiya ilə münasibətlərin yenidən kəskinləşəcəyi təqdirdə onlardan istifadə etmək niyyətində idi.[1]

XIX əsrin əvvəllərində çar Rusiyasına əks mövqedə dayanan Fransanın beynəlxalq münasibətlərdə rolunun artması, onun Osmanlı dövlətini Balkanlarda Rusiya nüfuzunun azaldılması istiqamətində fəaliyyətlərə təhrik etməsi iki dövlət arasında münasibətlərin kəskinləşməsində mühüm rol oynadı.

1806-cı ildə başlayan müharibənin ilk döyüş əməliyyatları Osmanlı dövləti üçün uğurlu olmadı. İngiltərənin çar Rusiyanı dəstəkləyərək Osmanlıya hücum etməsi, habelə Fransanın çar Rusiyası ilə yaxınlaşması Osmanlı dövlətinin Rusiyanın qarşısında tək qalmasına səbəb oldu. Tilzit sülhü ilə çar Rusiyası Qafqazda fəaliyyət sərbəstliyi əldə etdi. Bu müqavilənin imzalanması ilə Fransa Qafqazda çar Rusiyasına qarşı Qacarlar və Osmanlı dövlətləri ilə ittifaq qurmaq niyyətindən də əl çəkdi.[2]

1808-ci il iyulun 28-də Osmanlı səltənətində II Mahmudun taxta çıxması ilə baş vəzir təyin olunan Ələmdar Mustafa paşa Rusiya ilə tezliklə müqavilə və Fransa əleyhinə hərbi ittifaq bağlanılmasının tərəfdarı idi. Lakin 1808-ci il noyabrın 14-15-də başlanan yeniçəri üsyanı nəticəsində Ələmdar Mustafa paşa öldürüldü.[3] Bu hadisə ilə Osmanlı dövlətinin Rusiya ilə sülh bağlanmaq cəhdi baş tutmadı.[4]

Çar Rusiyasının Moldaviya və Valaxiyaya qoşun yeritməsi ilə başlanan Rusiya-Osmanlı müharibəsi Balkanlarla paralel olaraq Qafqaz cəbhəsində də gedirdi. Lakin Osmanlı dövlətinin müharibəyə hazır olmaması, saray çevrilişləri nəticəsində ölkədə daxili sabitliyin pozulması, hərbi-texniki gerilik və Qafqaz cəbhəsindəki Osmanlı sərkərdələri arasında yaşanan ixtilaflar Rusiyaya əlavə dividentlər gətirdi. Bundan istifadə edən Rusiya Qara dənizin şərq sahillərində Anakara, Anapa və Kemhal boğazını işğal etdi.

Birinci fəslin ikinci yarımfəsli “**Osmanlı dövlətinin Azərbaycanda anti-Rusiya kampaniyası**” adlanır. Bu yarımfəsildə Osmanlı dövlətinin Cənubi Qafqaz müsəlmanları arasında çar Rusiyası və onun müstəmləkəçilik

---

[1] Mustafazadə T. XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı, Elm, 2002, s. 76. (pdf).

[2] Süleymnov M. Gülüstan müqaviləsi. II hissə. Bakı, Elm və Təhsil, 2014, s. 38.

[3] Ünal F. Aleksander Grigoreviç Krasnokutsk’un Günlüyünden “1808 Yeniçeri Ayaklanması Ve Alemdar Mustafa Paşa Vakası” // Uluslararası Sosyal Araştırmalar Dergisi, Sayı 1/4, Yaz 2008, s. 582-585.

[4] Aleksandr Krasnokutskun İstanbul səfəri haqqında ətraflı məlumat üçün bax: Дневныя записки поездки в Константинополь Алексанра Григоревича Краснокутского в 1808 году.Самим им писанныя. Москва, Изд-во С.Селиновск, 1815, с. 15-55; Ünal F. Aleksander Grigoreviç Krasnokutsk’un Günlüyünden “1808 Yeniçeri Ayaklanması Ve Alemdar Mustafa Paşa Vakası” // Uluslararası Sosyal Araştırmalar Dergisi, Sayı 1/4, Yaz 2008, s. 574-590.

siyasətinə qarşı həyata keçirdiyi tədbirlər şərh olunmuşdur.

XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Azarbaycan xanlıqlarının, Dağıstan hakimlərinin, Car-Balakən və İlisu camaatının rus işğalına qarşı mübarizədə yardımla bağlı müraciətləri çar Rusiyası ilə yeni müharibə təhlükəsinin yaranacağından çəkinən İstanbul hökuməti tərəfindən cavabsız buraxılmışdı.[1] Belə münasibət Azərbaycan xanlarını İstanbul hökumətindən narazı salsa da, 1806-cı ildə başlanan rus-türk müharibəsi Rusiyaya qarşı birgə mübarizənin təşkili üçün yeni ümidlər yaratdı.

Osmanlı dövləti hərbi-texniki cəhətdən üstün olan rus qoşunlarının Qara dənizin şərq sahilləri boyu irəliləməsinin qarşısını almaq məqsədilə Rusiyanın işğalı altında olan Qafqazın müsəlman əyalətlərində çarizmə qarşı qiyam və üsyanların təşkilinə və bu yolla Qafqaz cəbhəsindəki rus qoşunlarının müəyyən qismini bu üsyanlara cəlb etməklə özündən yayındırmağa böyük əhəmiyyət verirdi. Bu məqsədlə Azərbaycan və Dağıstan xanlarına, eyni zamanda işğal edilmiş Azərbaycan xanlıqlarında Rusiyaya qarşı müqavimət hərəkatına rəhbərlik edən qüvvələrə xüsusi müraciətlər, sultan fərmanları göndərildi.[2]

1806-cı ildə Quba xanlığında hakimiyyətdən uzaqlaşdırılan Şeyxəli xan Osmanlı dövləti tərəfindən dəstəklənən Dağıstan hakimləri ilə birgə hərəkət edir və rus işğalına qarşı mübarizəni davam etdirirdi.[3]

Dağıstan ərazisinə göndərilən və Şəki xanı Cəfərqulu xan tərəfindən ələ keçirilən 32 ədəd məktubda Osmanlı mənsubları din yolunda yerli xanları rus işğalına qarşı mübarizəyə qalxmağa çağırışlar edirdilər. Bu cür məktublar yerlərdə rəğbətlə qarşılanırdı.[4]

1810-cu ildə sultanın verdiyi fərmana əsasən nüfuzlu Osmanlı hacılarından biri Qara dənizdən tutmuş Xəzər dənizinə qədər olan ərazidə yaşayan müsəlmanlara sərəsgər təyin edilmiş və bu fərmanın surəti dağ yerlərində yaşayanların hamısına göndərilmişdi ki, yeni təyin olunmuş sərəsgərə tabe olsunlar.[5]

Osmanlı dövlətinin Qafqaz cəbhəsindəki uğursuzluqlarına baxmayaraq, Türkiyənin Qafqaz müsəlmanları, xüsusilə də azərbaycanlılar arasında apardığı antirusiya kompaniyası faydasız olmadı. Müharibə dövründə Azərbaycanın müxtəlif bölgələrində Rusiyaya qarşı qalxan üsyanlar rus qoşunlarının müəyyən bir qisminin Qafqaz cəbhəsindən yayınmasına gətirib çıxartdı ki, bunun da nəticəsində rus ordularının Osmanlı ərazilərinin içərilərinə doğru irəliləməsinin qarşısı alınmış oldu.

---

[1] BOA, HAT, no. 44645 Ç, D, E, H, İ, J, K, L.
[2] BOA, HAT, no. 21379; BOA, HAT, no. 42301.
[3] AKAK, T. III, док. 542, с. 299-300.
[4] Yenə orada, s. 427-428.
[5] Sadıqov H. Göst. əsəri, s. 89.

**“Rusiyanın hərbi əməliyyatlara azərbaycanlıları cəlb etmək cəhdləri”** adlanan üçüncü yarımfəsildə rus hakim dairələrinin yerli əhalini, o cümlədən azərbaycanlıları öz işğalçılıq siyasətinə alət etmək niyyətləri şərh olunmuşdur.

Rusiya imperiyası Cənubi Qafqazda “parçala və hökm sür” siyasəti yeridir, diplomatik vasitələrlə siyasi rəqiblərini bir-birinə qarşı qoyur və müxtəlif siyasi və etnik qrupları şirnikləndirici vədlərlə aldadaraq onlardan öz məqsədləri üçün istifadə edirdi.

Qafqazdakı rus komandanlığı yerli xristian əhalisinin, habelə Şimali Azərbaycan ali müsəlman silkinin Rusiya ilə əməkdaşlığa və ona sədaqətlə qulluğa hazır olan təbəqəsinin və müqavilə ilə Rusiyanın himayəsinə qəbul edilən xanlıqların xidmətlərindən istifadə etməyə çalışırdı.

1807-ci iyunun 18-də Qafqaz cəbhəsində Rusiya və Osmanlı orduları arasında Arpaçayın sahilində Gümrü qalası yaxınlığında baş verən həlledici döyüşdə gürcü və ermənilərlə yanaşı azərbaycanlı atlı dəstələr də Rusiya tərəfdən iştirak etdilər. Arpaçay döyüşündə “xüsusi qəhrəmanlıqlar” göstərən və fərqlənən bir çox azərbaycanlı hətta qızıl medallarla da təltif edilmişdi.[1]

1808-ci il sentyabrın 25-də Qudoviçin Naxçıvan yürüşündə Şəki xanı da öz dəstəsi ilə iştirak edirdi.[2] Eyni zamanda Qarabağ və Şamaxı xanlıqlarının atlı dəstələri də bu yürüşdə Nebolsinin sərəncamında idi və ona canla-başla qulluq edir, öz məharətlərini göstərməyə çalışırdılar.[3]

Osmanlı qoşunlarına qarşı 1810-cu il hərbi kompaniyasında Qazax və Şəmsədil ağalarının təxminən üç min atlı döyüşçüdən ibarət qüvvələrindən istifadə edildi.[4] Bu ərazilərdən, habelə Dərbənd müsəlmanlarından təşkil edilən qeyri-nizami silahlı atlı dəstələr polkovnik Kotlyarevski və digər rus zabitlərinin komandanlığı altında rus qoşunlarının tərkibində 1811-1812-ci illərdə Axıska və Axalkələk qalaları ətrafında Osmanlı qoşunları ilə aparılan döyüşlərdə də iştirak etdilər. Çar Rusiyasının Qafqaz cəbhəsi komandanlığının mərkəzə göndərdiyi məktub və raportlarda Axalkələk qalasının alınması zamanı və digər döyüşlərdə müsəlman dəstələrin göstərdikləri “şücaətlər” haqqında məlumatlar verilir.[5]

Lakin bununla yanaşı, Rusiya-Osmanlı müharibəsinin gedişində ruslar Qafqaz cəbhəsində ən çox gürcü və ermənilərin köməyindən yararlandılar. Qeyd etmək lazımdır ki, çarizm müsəlmanların yardımlarından faydalandığı

[1] Ибрагимбейли Х.М. Россия и Азербайджан в первой трети XIX века, с. 95.
[2] АКАК, Т. III, док. 520, с. 290.
[3] Ибрагимбейли Х.М. Россия и Азербайджан в первой трети XIX века, с. 93.
[4] АКАК, Т. V, док. 251, с. 181.
[5] АКАК, Т. V, док. 251, с. 181; Фадеев А.В. Россия и Кавказ первой трети XIX в., с. 161; Ибрагимбейли Х.М. Россия и Азербайджан в первой трети XIX века, с. 128-133.

hallarda da daim onlara şübhə ilə yanaşır və etibar etmirdi.

Müharibə dövründə Azərbaycanın bir çox bölgələrində Osmanlı və İran dövlətlərinin dəstəyi ilə rus işğalına qarşı üsyanların baş verdiyi və bu üsyanların qan içində boğulduğu bir zamanda azərbaycanlıların digər qisminin gürcü və ermənilərlə birlikdə Rusiya orduları tərkibində Osmanlı dövlətinə qarşı hərbi əməliyyatlarda iştirak etməsi əslində taleyi öz əlində olmayan və başqalarının öz məqsədlərini həyata keçirmək üçün alətə çevirdiyi xalqın faciəsindən başqa bir şey deyildi.

Birinci fəslin "**Buxarest müqaviləsi**" adlanan dördüncü yarımfəslində Buxarest müqaviləsi və onun Azərbaycan üçün doğurduğu hərbi-siyasi nəticələri təhlil olunmuşdur.

Çar Rusiyası və Osmanlı imperiyaları arasında aparılmış danışıqlar nəticəsində 1812-ci il mayın 16 (28) – da Buxarestdə Rusiya ilə Osmanlı dövləti arasında sülh müqaviləsi imzalandı.[1]

Dövrün tədqiqatçılarından olan Elza Paşayeva Buxarest müqaviləsini 16 açıq və 12 gizli maddədən ibarət olduğunu iddia edir.[2] Lakin apardığımız tədqiqatlar gizli maddələrin 12 deyil, sadəcə 2 maddədən ibarət olub, bunun da birinin Qafqaza, digərinin isə Balkanlara aid olduğunu ortaya qoydu.[3]

Buxarest müqaviləsinin iki gizli maddəsindən biri, 16 açıq maddəsinin isə 4-ü – 2, 3, 6 və 13-cü maddələri Qafqazla bağlı idi və bu maddələr bu və ya digər dərəcədə Azərbaycanın mənafeyinə toxunurdu. Buxarest müqaviləsi ilə Rusiya 1806-1812-ci illər rus-türk müharibəsi nəticəsində işğal etdiyi əraziləri türklərə geri qaytarsa da, bu ərazilərin xaricində rus işğalı altında qalan Cənubi Qafqaz ərazilərinin – Şərqi Gürcüstan və Şimali Azərbaycan xanlıqlarının Rusiyaya keçdiyini Osmanlı dövlətinə qəbul etdirə bildi.[4] Bununla da, Rusiya Qafqazın işğalı prosesinin birinci mərhələsini öz xeyrinə yekunlaşdırdı və

---

[1] BOA, HAT, no. 34665; BOA, HAT, no. 50329; Mahmudov Y., Şükürov K. Göst. əsəri, s. 415-427; Kurat A.N. Türkiye ve Rusya, s. 50-51; Erim N. Devletler Arası Hukuku ve Siyasi Tarih Metinleri. C. 1. Ankara, TTK, 1953, s. 241-254; Гиндель Г.М. М.И.Кутузов и Бухарестский мир (К вопросу о заключении М.И.Кутузовым Бухарестского мира) // Ученые записки Горьк. Ун-та. 1954, вып. XXVI (Сер. историко-фил.), с. 93-105; Фадеев А.В. Бухарестский мир 1812 г. и вопрос Кавказских границах // Ученые записки историко-филол. ф-та Ростов Н/Д. ун-та, 1952, Т. XXI, Сер. История, вып. 3, с. 79-86.

[2] Paşayeva E.M. 1801-1830-cu illərdə Rusiya, Türkiyə və İran münasibətlərində Azərbaycan problemi // Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2005, s. 12.

[3] BOA, HAT, no. 34665; BOA, HAT, no. 50329; Гиндель Г.М. М.И.Кутузов и Бухарестский мир (К вопросу о заключении М.И.Кутузовым Бухарестского мира) // Ученые записки Горьк. Ун-та. 1954, вып. XXVI (Сер. историко-фил.), с. 93-105; Фадеев А.В. Бухарестский мир 1812 г. и вопрос Кавказских границах // Ученые записки историко-филол. ф-та Ростов Н/Д. ун-та, 1952, Т. XXI, Сер. История, вып. 3, с. 79-86.

[4] Фадеев А.В. Бухарестский мир 1812 г. и вопрос Кавказских границах // Ученые записки историко-филол. ф-та Ростов Н/Д. ун-та, 1952, Т. XXI, Сер. История, вып. 3, с. 79-86.

işğalın nəticələrini Qafqazda marağı olan Osmanlı və İran dövlətlərinə qəbul etdirdi.

Dissertasiyanın **"1828-1829-cu illər Osmanlı-Rusiya müharibəsi və Azərbaycan"** adlanan ikinci fəsli üç yarımfəsildən ibarətdir. **"Buxarest müqaviləsinin uğursuzluğu, 1828-1829-cu illər müharibəsinin başlanması və Qafqaz cəbhəsində hərbi əməliyyatlar"** adlanan birinci yarımfəsildə iki dövlət arasında bağlanmış müqavilənin səbatsızlığının səbəbləri, yeni müharibəni doğuran amillər kimi mühüm problemlər şərh olunmuşdur.

1812-ci ildə böyük qurbanlar hesabına Napoleonu darmadağın edən çar Rusiyası bir qədər özünə gəldikdən sonra yenidən Qafqaz və Balkanlarda Osmanlı dövlətindən yeni ərazilər qoparmaq, Osmanlı dövlətini parçalamaq və boğazlara sahib olmaq uğrunda mübarizəsini davam etdirməyə başladı.

1813-1815-ci illərdə Osmanlı hökuməti bir neçə dəfə çar Rusiyasından Buxarest müqaviləsinin şərtlərini yerinə yetirib Qara dənizin şərq sahillərindəki qalaları boşaltmasını tələb etsə də, bir nəticə əldə edilmədi.

Şimali Qafqaz xalqları nümayəndələrinin Osmanlı dövlətinə bağlı olduqlarını elan etmələri və İstanbul hökumətindən yardım istəmələri[1] Rusiyanı qıcıqlandırırdı.[2]

1821-ci ildə Balkanlarda Boğdan və Mora xristianları Osmanlı idarəsinə qarşı üsyan qaldırdılar. Lakin Rusiya, İngiltərə və Fransa dövlətlərinin xristian təəssübkeşliyi nümayiş etdirərək yunanları müdafiəyə qalxmaları ilə "yunan məsələsi" beynəlxalq mahiyyət aldı. 1827-ci il oktyabrın 20-də müttəfiqlərin donanması müharibə vəziyyətinin olmamasına baxmayaraq Navarində dayanmış Osmanlı-Misir donanması üzərinə hücum etdilər, türk donanmasının bir qismini yandıraraq, bir qismini də batıraraq məhv etdilər.[3]

1828-ci il aprelin 26-da Rusiya imperatoru I Nikolayın imzası ilə Osmanlı dövlətinə qarşı müharibə bəyannaməsi nəşr olundu. I Nikolayın Osmanlı dövləti ilə müharibənin başlanması ilə əlaqədar rus xalqına elan etdiyi xüsusi manifestdə xalq aldadılır, iki ölkə arasında müharibəyə rəvac verən tərəf kimi İstanbul hökuməti göstərilirdi.[4]

1828-ci il aprelin 26-dan 1829-cu il sentyabrın 14-dək davam edən Rusiya-Osmanlı müharibəsi iki cəbhədə - Balkan və Qafqaz cəbhələrində gedirdi. Hər iki cəbhədə aparılan hərbi əməliyyatlar Rusiyanın tam qələbəsi ilə nəticələndi.

---

[1] BOA, HAT, no.44615; BOA, HAT, no. 44558 F; BOA, HAT, no. 44595; BOA, HAT, no. 44551; BOA, HAT, no. 44601; BOA, HAT, no. 40990.

[2] BOA, HAT, no. 44584.

[3] Yorga N. Osmanlı Tarihi. C. V. İstanbul, Yeditepe Yayınevi, 2005, s. 333.

[4] Бухаров Д. Россия и Турция, с. 89; Шеремет В.И. Турция и Адрианопольский мир 1829 г. Москва, Из-во «Наука», 1975, с. 32

İkinci fəslin **"Rusiyanın müharibədə Azərbaycanın hərbi-strateji imkanlarından istifadə cəhdləri"** adlanan ikinci yarımfəslində Rusiyanın Azərbaycan ərazisindən öz işğalçılıq siyasətini həyata keçirmək üçün döyüş meydanı kimi istifadə etmək cəhdləri tədqiq olunmuşdur.

XIX əsrin I rübündə xanlıqların daxili müstəqilliklərinin də ləğv edilməsi Azərbaycan iqtisadiyyatının tam olaraq rus məmurlarının nəzarətinə keçməsi ilə nəticələnmişdi ki, bundan da çar Rusiyası hökuməti xammal mənbəyi və satış bazarı kimi istifadə etməklə yanaşı İran və Osmanlı dövlətinə qarşı apardığı müharibələrdə də mühüm iqtisadi baza kimi faydalanırdı.

1828-1829-cu illər çar Rusiyası-Osmanlı müharibəsi dövründə Qafqazdakı rus qoşunlarının baş komandanı general İ.Paskeviç Qafqazın bütün hərbi, strateji imkanlarını, eyni zamanda iqtisadi və insani resurslarını müharibəyə səfərbər etdi.

Dövrün arxiv sənədlərdə də birmənalı olaraq vurğulanır ki, müharıbənin gedişində Qafqaz cəbhəsində Qars, Bəyazid, Ərzurum, Bayburd və ətraf ərazilərin rus qoşunları tərəfindən işğal edilməsi məhz bu ərazilərdə yaşayan ermənilərin xəyanəti və ruslara xidmət etməsi sayəsində mümkün olmuşdur.[1]

Azərbaycanı öz işğalı altında saxlayan Rusiya, onun hərbi-strateji imkanlarından Osmanlı dövlətinə qarşı müharibədə maksimum dərəcədə istifadə etdi. Rusiya-Osmanlı müharibəsi dövründə Şimali Azərbaycan Qafqaz cəbhəsində vuruşan rus ordusunun ərzaqla təmin edilməsində əsas baza rolunu oynayırdı. Şimali Azərbaycan iqtisadiyyatının müharibənin tələblərinə uyğunlaşdırılması, zəruri ərzaq məhsullarının əhalidən rus məmurları tərəfindən müəyyən edilən aşağı qiymətlərlə və ya pulsuz olaraq zorla alınması, kəndlilərdən at, öküz və digər iş heyvanlarının alınaraq hərbi yük daşımalarına cəlb edilməsi, eyni zamanda əhalinin özünün də cəbhə ehtiyaclarının ödənilməsi üçün arxa cəbhədə biyar tipli əvəzi ödənilməyən işlərə cəlb edilməsi müharibənin ağırlıqlarının Azərbaycan xalqının üzərinə qoyulması demək idi. Bütün bunlar, müharibədə Rusiyanın qələbəsinin təmin edilməsində mühüm rol oynadılar.

İkinci fəslin **"Ədirnə müqaviləsinin anti-Azərbaycan maddələri və onların təhlili"** adlanan üçüncü yarımfəslində Osmanlı imperiyasından ermənilərin kütləvi surətdə Şimali Azərbaycan torpaqlarına köçürülməsi üçün hazırlanan siyasi-iqtisadi zəmin öyrənilmişdir.

1829-cu il 14 sentyabr tarixində Rusiya və Osmanlı dövləti arasında

---

[1] BOA, HAT, no. 43153 C; BOA, HAT, no. 43122; BOA, HAT, no. 42478 A; BOA, HAT, no. 37386 H; BOA, HAT, no. 42724 B; BOA, HAT, no. 42741 A; BOA, HAT, no. 46432 C; AKAK, T. VII, док. 818, с. 830; Ушаков Н.И. История военных действии а Азиатской Турции в 1828 и 1829 годах. В двух частях. Част 2, с. 187, 260; AKAK, T. VII, док. 818, с. 830.

Rusiyanın diktə etdiyi şərtlər əsasında Ədirnə müqaviləsi imzalandı.[1] Ədirnə müqaviləsi 16 maddə, əlavə olaraq müharibə və ticarət təzminatı ilə bağlı 4 maddəlik konvensiya və Moldaviya-Valaxiyanın imtiyazları ilə bağlı separat aktdan ibarət idi.[2]

Müqavilənin on üçüncü maddəsi də Cənubi Qafqazla bağlı idi və bu maddə birbaşa Azərbaycanın mənafeyinə zərbə idi. Bu maddəyə görə, hər iki dövlət müharibə dövründə düşmən tərəfə xidmət edən təbəələrini əfv edir və bunlara 18 ay müddətində istədikləri yerlərə köçmək hüququ verilirdi.[3]

Bunun nəticəsi idi ki, Ədirnə müqaviləsinin imzalanmasından sonra qısa zaman kəsiyində ermənilərə hamilik edən Rusiya imperiyası tərəfindən, Osmanlı dövlətindən rəsmi rəqəmlərə görə 90000 erməni köçürülərək Azərbaycanın İrəvan və Naxçıvan xanlıqları ərazilərində yaradılmış "Erməni vilayəti"ndə və ətraf ərazilərdə məskunlaşdırıldı.[4] Qeyri-rəsmi köçürülənlərlə birlikdə bu rəqəm 100 mindən çox idi.[5] Köçürmələr nəticəsində Şimali Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ bölgələrində demoqrafiq vəziyyət kəskin dəyişdi və Azərbaycan üçün həlli müşkül olan bir problem yaranmış oldu.

Dissertasiyanın **"Rusiya imperiyasının erməniləri Osmanlı dövlətindən Şimali Azərbaycana köçürməsi"** adlanan üçüncü fəsli üç yarımfəsildən ibarətdir. **"Köçürmə siyasətinin hazırlanması"** adlanan birinci yarımfəsildə Osmanlı imperiyasından ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsinin mexanizmi təhlil edilmişdir.

Ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi layihəsi hələ 1827-ci ildə A.S.Qriboyedovun başçılıq etdiyi Cənubi Qafqaz diyarının diplomatik dəftərxanasında hazırlanmışdı.

Osmanlı dövlətindən ermənilərin köçürülməsi işini general Pankratyevin rəhbərliyi ilə rus hərbçiləri həyata keçirirdilər. Paskeviç Osmanlı ərazilərindən köçürülən erməni əhalisini yerləşdirmək üçün xüsusi komitə də yaratdı və bu komitənin fəaliyyəti ilə bağlı 12 maddədən ibarət "qaydaları" müəyyən etdi.[6]

Ədirnə müqaviləsinin imzalanmasından sonra keçən 18 ay ərzində Osmanlı dövlətindən çar Rusiyası tərəfindən Şimali Azərbaycan ərazisinə köçürülən ermənilərin sayı rəsmi rəqəmlərə görə 14.044 ailə və ya 90.000

---

[1] BOA, HAT, no. 43209; Последняя война с Турцией заключаюшая в себе компанию 1828 и 1829 гг. в Европейской и Азиатской Турций и на Кавказе. Ч. II, СПб., 1850, с 155-157; Шеремет В.И. Турция и Адрианопольский мир 1829 г., с. 149-150.

[2] BOA, HAT, no. 42875.

[3] BOA, HAT, no. 42875; Договоры России с Востоком, политические и торговые, с.79.

[4] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852, с. 642; АКАК, Т. VII, док. 829, с. 845-846.

[5] АКАК, Т. VII, док. 829, с. 845-846.

[6] АКАК, Т. VII, док. 820, с. 831-832, док. 822, с. 835-836.

nəfər olmuşdur.[1] Köçürülən ermənilərin İrəvan, Naxçıvan və Qarabağ ərazilərində yerləşdirilməsində məqsəd, işğal edilmiş Şimali Azərbaycanla Cənubi Azərbaycan və Osmanlı dövləti arasında ermənilərdən ibarət xristian bufer zonası yaratmaq və bu xalqlar arasında əlaqələri kəsməkdən ibarət idi.

Üçüncü fəslin "**Ermənilərin Şimali Azərbaycana köçürülməsinin mərhələləri və dinamikası**" adlanan ikinci yarımfəslində köçürmə nəticəsində Şimali Azərbaycanın demoqrafik vəziyyətində baş verən dəyişikliklər faktiki materiallar əsasında tədqiq edilmişdir.

Ədirnə müqaviləsinin imzalanmasından sonra, Rusiya hökuməti bu müqavilənin on üçüncü maddəsinə istinad edərək, Osmanlı imperyasının Balkan və Şərqi Anadolu ərazilərində yaşayan xristian əhalisinin Rusiya ərazilərinə köçürülməsi prosesini həyata keçirməyə başladı.

1829-cu ilin oktyabrından 1831-ci ilin martına qədər, Osmanlı ərazilərindən Cənubi Qafqaza 14.044 erməni ailəsi köçürülmüşdür. Bunlardan Ərzurum köçkünü olan 7298 və Ərdəhandan köçürülən 67 erməni ailəsindən (ümumilikdə 7365 ailə) 5000 ailə Axalsıx paşalığının ərazisində, 1050 ailə Borçalı distansiyası ərazisində və Çalki ətrafında, 1315 ailə isə Pəmbək və Şörəyel distansiyalarında yerləşdirildi. Karsdan köçürülən 2464 erməni ailəsindən 2264 ailə Pəmbək və Şörəyel distansiyaları ərazisində, 200 ailə isə Erməni vilayəti və Talın mahalında məskunlaşdırıldı. Bəyazid sancağından köçürülən 4215 erməni ailəsi isə Erməni vilayəti, Göyçə gölü ətrafi və Baş Abaranda yerləşdirildi.[2]

Rusiyaya köçürülən ermənilər Osmanlı dövlətinin əsas etibarilə, Ərzurum, Bəyazid, Kars və Ərdəhan ərazilərində yaşayan ermənilər idi. Köçürülən erməni əhalisi əsasən Osmanlı dövləti ilə sərhəd ərazilərdə − Axıska, Axalkələk, Lori-Pəmbək, Göyçə gölü ətrafı və Erməni vilayətində kompakt şəkildə məskunlaşdırıldı.[3]

Türk tarixçisi Kamal Beydili "rəqəmləri təhlil edərək köçürülən ermənilərin sayının 100 min civarında olduğunu qeyd edir.[4] Rus tarixçisi O.Kuznetsov isə bəhs edilən dövrdə Osmanlı dövlətindən Cənubi Qafqaza köçürülən ermənilərin sayının 150.000[5], erməni tarixçisi N.A.Tavakalyan

---

[1] АКАК, Т. VII, док. 829-830, с. 845-847; Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852, с. 642.
[2] АКАК, Т. VII, док. 830, с. 847.
[3] АКАК, Т. VII, док. 830, с. 847.
[4] Beydili K. 1828-1829 Osmanlı-Rus savaşında Doğu Anadolu'dan Rusya'ya Göçürülen Ermeniler, s. 407.
[5] Кузнецов О. Нашествие или исход? Переселение армян в Закавказье в 1829-1831 гг. в трудах российских военных историков второй трети XIX – начала XX столетия // İRS- Наследие, № 5 (59), Баку, 2012, с. 60.

14.000 ailədən çox və ya 100 min nəfər[1], R.Hovannisian isə 100 min nəfər civarında olduğunu yazır.[2]

Beləliklə, 1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə sülh müqavilələri ilə Qacarlar və Osmanlı dövlətləri ərazilərindən başlanan ermənilərin köçürülməsi prosesi kütləvi hal alaraq təkcə 1828-1831-ci illər kompaniyası dövründə 200.000 erməninin Cənubi Qafqaza köçürülməsi ilə nəticələndi.

Üçüncü fəslin **"Köçürülmənin Şimali Azərbaycan üçün ağır nəticələri"** adlanan üçüncü yarımfəslində Azərbaycan əhalisinin demoqrafik vəziyyətində baş vermiş dəyişiklərin ölkənin sonrakı taleyinə təsiri məsələsi tədqiq olunmuşdur.

Köçürmə prosesinin başlaması ilə təxminən eyni vaxtda, 1828-ci il martın 21-də İrəvan və Naxçıvan xanlıqlarının ləğv edilərək bu xanlıqların ərazisində qondarma "erməni vilayəti"nin yaradılması[3] ilə Qacarlar və Osmanlı dövlətlərindən köçürüləcək erməni əhalisi üçün ərazi bazası yaradılmış oldu ki, bu da Rusiyanın strateji imperiya maraqlarından qaynaqlanırdı. Nəticədə, tarix boyu türk-müsəlman əhalinin yaşadığı və ermənilərlə heç bir əlaqəsinin olmadığı tarixi Azərbaycan torpaqları olan İrəvan və Naxçıvan xanlıqlarının ərazisi xaricdən köçürülən ermənilər üçün əsas ərazi kimi seçildi və bu ərazi I Nikolay tərəfindən ermənilərə bəxşiş edildi.

Çar Rusiyası tərəfindən köçürmə prosesinin həyata keçirilməsindən əvvəl 1828-ci ildə "Erməni vilayəti" adlandırılan ərazidə 107.224 nəfər əhali yaşayırdı ki, bunun da 76,24 %-ni azərbaycanlılar, 23,45 %-ni ermənilər təşkil edirdi.[4]

Köçürülən ermənilərin Şimali Azərbycanın İrəvan, Naxçıvan və Qarabağ bölgələrində kompakt şəkildə yerləşdirilməsi nəticəsində bu bölgələrin tarixən formalaşmış etnodemoqrafik vəziyyəti süni surətdə kəskin şəkildə dəyişdirildi. "Erməni vilayəti" adlandırılan ərazidə erməni əhalisinin sayı İrəvan əyalətində 24 %-dən 54 %-ə, Naxçıvan əyalətində isə 13 %-dən 54 %-ə qaldırıldı. Qarabağ əyalətində isə ermənilərin sayı 8 %-dən 35 %-ə qalxdı.

Köçkünlərlə yerli əhali arasında münaqişlər dərinləşdikcə ermənilərin çar Rusiyası hakimiyyət orqanları tərəfindən açıq şəkildə himayə edilməsi və onlardan bölgədəki müsəlmanları nəzarətdə və itaətdə saxlamaq üçün bir vasitə kimi istifadə olunması sonralar millətlərarası qanlı toqquşmalara gətirib çıxartdı ki, bunun da təməlində çar Rusiyasının erməniləri köçürmə siyasəti və

[1] Тавакалян Н.А. Переселение армян из Персии и Турции в Закавказье после присоединения Восточной Армении к России // Историко-филологический журнал АН Арм. ССР. Ереван, 1978, № 3 (82), с. 37.
[2] Hovannisian R.G. Armenia on the Road to İndependence 1918. Los Angeles, Berkeley, 1967, p. 9.
[3] Полное собрание законов Российской империи. Собр. Второе. Т. III, 1828, с. 272-273.
[4] Əliyev F., Həsənov U. İrəvan xanlığı, s. 15

müsəlmanlara qarşı həyata keçirdiyi irqi, milli, dini ayrıseçkilik siyasəti dayanırdı.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilmiş, aparılan araşdırmalara yekun vurularaq, əldə olunmuş nəticələr və gələcək perspektivlər müəyyənləşdirilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır:**

1. **Rusiya imperiyasının erməniləri Osmanlı dövlətinin ərazisindən Şimali Azərbaycana köçürmə siyasətinin hazırlanması** // DİA Dövlət İdarəçiliyi: Nəzəriyyə və təcrübə jurnalı. Bakı, 2013, № 4 (44), s. 185-193.
2. **Rusiyanın anti-Osmanlı siyasəti: kökləri və həyata keçirilməsinə dair (XVI-XIX əsrin 20-ci illəri)** // Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konferansının materialları. Bakı 2013, II Cild, s. 304-306.
3. **1806-1812-ci illər Osmanlı Rusiya müharibəsi: Böyük dövlətlərin geosiyasi planları və Qafqaz** // Bakı Avrasiya Universiteti, "Sivilizasiya" Jurnalı. XI, 2014, s. 248-261.
4. **XIX əsrdə ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi: Türkmənçay və Ədirnə müqavilələrinin nəticələri** // Azərbaycan Turizm və Menecment Universiteti, Turizm və qonaqpərvərlik tədqiqatları, Beynəlxalq jurnal. İl 4, sayı 3, 2015, s. 93-104.
5. **XIX əsrin əvvəllərində Beynəlxalq münasibətlər və 1806-1812-ci illər Rusiya Osmanlı müharibəsi** // Journal of Qafqaz University History, Law And Political Sciences, Volume 3, Number 2, 2015, s. 170-185.
6. **Rusiya-Osmanlı qarşıdurmasında Azərbaycan faktoru: toqquşan maraqlar və hərbi əməliyyatlara azərbaycanlıların cəlb edilməsi cəhdləri** // Tarix və onun problemləri. Bakı, 2015, № 2, s. 63-71.
7. **Росийско-Османская война 1806-1812-х годов и Кавказкий фронт** // журнал «Гiлея», Випуск 104 (№1), Киiв, 2016, с. 87-90.
8. **1806 – 1812 Osmanlı-Rusya Savaşı Ve Azerbaycan** // OSMED Osmanlı Medeniyeti Araşdırmaları Dergisi. Cilt 2, Sayı 2, Ocak 2016, s. 45-59.
9. **1828-1829-cu illərdə Osmanlı-Rusiya müharibəsində Azərbaycanın rolu** // Naxçıvan Universitetinin Elmi Əsərləri, 2017 №1 (4), s. 27-37.
10. **XIX əsrdə Rusiya imperiyasının Azərbaycana aid siyasəti** // Tarix və onun problemləri, Bakı, 2017, № 4, s. 41-52.

**Г.М.Теймурова**

# ОСМАНО-РОССИЙСКИЕ ОТНОШЕНИЯ И АЗЕРБАЙДЖАН (в первой трети XIX в.)

## РЕЗЮМЕ

Диссертационная работа посвящена изучению Османо-Российская отношения и Азербайджан в первой трети XIX века. Во введении обосновывается актуальность темы, анализируется степень изученности темы, источниковая база, определяется научная новизна, цели и задачи, научно-практическое значение проведенного исследования.

Первая глава диссертации - «Османско-Российская война 1806-1812 годов и Азербайджан» - состоит из четырех параграфов. В этой главе анализируются стратегические намерения России и Османского государства на Южном Кавказе, их планы и ход войны; излагаются действия, предпринятые Османской империей среди мусульман Южного Кавказа против России и ее колониальной политики; рассматриваются намерения российских властей сделать инструментом своей оккупационной политики местного населения, и прежде всего азербайджанцев; анализируется Бухарестский договор и его военно-политические итоги для Азербайджана.

Вторая глава диссертации называется «Османско-Российская война 1828-1829 годов и Азербайджан». Она состоит из трех параграфов. В этой главе объясняются важные проблемы, как причины безграмотно составленного договора, заключенного между двумя государствами, и вероятные факторы, зарождающие новую войну; были исследованы попытки России использовать территорию Азербайджана, как арена борьбы для осуществления своей оккупационной политики на Кавказе; диссертации рассматриваются политические и экономические предпосылки массового переселения армян из Османской імпериина земли Северного Азербайджана.

Третья глава диссертации под названием «Переселение армян Российской империей из Османской империи в Северный Азербайджан» состоит из трех параграфов. В этой главе анализируется механизм переселения армян из Османской империи на территории Северного Азербайджана; на основе статистических данных исследуются изменения демографической ситуации в Азербайджане в результате этого переселения; исследуется вопрос о влиянии изменения будущую судьбу страны в демографической ситуации азербайджанского населения.

В заключении обобщены результаты научного исследования и подведены основные итоги.

**G.M.Teymurova**

# OTTOMAN -RUSSIAN RELATIONS AND AZERBAIJAN
## (The first thirty years of the XIX century)

## SUMMARY

In the “introduction” of the thesis the author substantiated the relevance of the topic, conducted an analysis the degree of studying of the problem. At the same time, the chronological framework, the degree of the studying of the problem, the source base, the scientific novelty, the goals, and objectives, the scientific and practical significance of the investigation are shown.

The first chapter of the dissertation consists of four subchapters called “The Ottoman-Russian War and Azerbaijan in 1806-1812”. İn this chapter ,analyzes the strategic intentions of Russia and Ottoman states in the South Caucasus, their plans and the course of the war; outlines the actions taken by the Ottoman Empire which was against Russia and its colonial policy among the Muslims of the South Caucasus; deals with the intentions of the Russian authorities to use local population, as well as Azerbaijanis for their occupation policy; analyzes the Bucharest Treaty and its military-political consequences for Azerbaijan.

The second chapter of the dissertation is called “Ottoman-Russian War and Azerbaijan in 1828-1829”. It consists of three paragraphs. This chapter outlines the crucial problems, such as the reasons for the failure of the treaty between the two states, as well as the factors causing a new war; attempts made by Russia to use the territory of Azerbaijan as a battlefield to implement its occupation policy are investigated; explores the political and economic background for the relocation of Armenians to the Northern Azerbaijan territories from the Ottoman Empiremassively.

The third chapter of the dissertation is called “Relocation of Armenians from the Ottoman Empire to Northern Azerbaijan by the Russian Empire”. It consists of three paragraphs. İn this chapter, the mechanism of the relocation of Armenians from the Ottoman Empire to the Northern Azerbaijan territories has been analyzed; the changes in the demographic situation of Azerbaijan as a result of the relocation have been researched on the basis of actual materials; the influence of the changes in the demographic situation of the Azerbaijani population on the country's future fate has been studied.

The conclusion summarizes the results of scientific research and the main conclusions are given.

Kağız formatı: 60/84 16/1
Sayı: 100 nüsxə

AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

*На правах рукописи*

**ГЮНЕЛЬ МАМЕДЖАМАЛ гызы ТЕЙМУРОВА**

# ОСМАНО-РОССИЙСКИЕ ОТНОШЕНИЯ И АЗЕРБАЙДЖАН
## (в первой трети XIX в.)

**Специальность: 5507.01- История международных отношений**

# А В Т О Р Е Ф Е Р А Т

**Диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ-2018**